


***Dövlət bayrağını ucaldaraq şəhidlərimizin əziz xatirəsinə bir daha ehtiramımı bildirirəm. Azərbaycan xalqına da təşəkkürümü bildirirəm ki, müharibə dövründə bir yumruq kimi birləşib orduya dayaq oldu, mənə arxa oldu və biz bunun hesabına düşmənin başını əzdik, Qələbə çaldıq. Bundan sonra qalib xalq və müzəffər ölkə kimi əbədi yaşayacağıq.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Müzəffər lider, qalib xalq və qüdrətli dövlət

***2018-ci il, 9 May – Qələbə Günü ərəfəsində rusiyalı həmkarlarımızdan biri sosial şəbəkədəki yazılarını oxunaqlı etmək üçün auditoriyaya gözlənilməz sual ünvanlamışdı: "SSRİ – Almaniya müharibəsində kim qalib gəlmişdi?" Bu sadə suala özü beş cavab vermiş və xahiş etmişdi ki, hərə bir cavabın doğru olduğunu təsdiqləsin.***

Qələbə günü ərəfəsində yekunlar hesablananda məlum oldu ki, sorğuya münasibət bildirənlərin 34 faizi "Ədalətli müharibə aparan tərəf" cavabını təsdiqləmiş, 32 faizi "Ali Baş Komandana inamı böyük olan tərəf" cavabını bəyənmiş, 24 faizi isə "Arxa cəbhəsi orduya daha yaxşı kömək edən tərəf" cavabının doğru olduğunu bildirmişdi. Qalan on faiz respondentin cavabları isə digər iki cavabın doğru oldunu göstərirdi.

Sadə bir rus jurnalistin üç il yarım bundan əvvəl oxucu toplamaq üçün ortaya atdığı həmin məsələnin bu gün xatırladılması qətiyyən təsadüfi deyil. Belə ki, kimsə həmin sualları bizim 44 günlük İkinci Qarabağ müharibəmizin nəticələrinə tətbiq etmək istəyərsə, tam əminəm ki, eynilə həmin cavabları eşidəcəyik. Çünki bizim ədalətli müharibə apardığımızı da dünyada hamı bilir, Ali Baş Komandanımıza xalqın inamı, ordunun sədaqəti də hamıya məlumdur, arxa cəbhənin – ölkə əhalisinin əl-ələ tutaraq Prezidentin yanında, orduya arxa, dayaq olduğunu da görməyən yoxdur.

Təsadüfi deyil ki, Prezident İlham Əliyev şanlı qələbəmizdən sonrakı çıxış, nitq, müsahibələrinin birində "Müzəffər Azərbaycan Ordusu" ifadəsini işlədirsə, digər müsahibədə "Müzəffər xalq" söz birləşməsini daha qabarıq şəkildə deyir. Xalq isə bütün tədbirlərdə, daim, hər yerdə "Müzəffər Prezident", "Qalib Ali Baş Komandan" xitablarını işlətməkdən zövq alır.

İşğalçının ərazimizdən qovulmasında, faşist təfəkkürlü dövlətin üzərində qələbənin qazanılmasında Ali Baş Komandan İlham Əliyevin misilsiz rolu tək rəsmi qəzetlərdə və ya müstəqil mətbuatda deyil, hətta müxalifyönlü kütləvi informasiya vasitələrində də, demək olar ki, yekdilliklə etiraf edilir. Hamının fikri qətidir ki, bu Qələbə Prezident İlham Əliyevin siyasət, iqtisadiyyat və diplomatiya sahəsindəki 18 illik ardıcıl, prinsipial və uzaqgörən fəaliyyətinin nəticəsidir.

Ancaq dövlət başçımız məsələyə başqa yöndən yanaşır: "Mən işğal dövründə dəfələrlə deyirdim ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq. Ermənistan rəhbərlərinə dəfələrlə deyirdim ki, hələ gec deyil, öz xoşları ilə bizim torpaqlarımızdan çıxsınlar, rədd olsunlar. Ancaq əfsuslar olsun ki, onların uzun illər ərzində yaydıqları yalana özləri də inanmağa başlamışdılar. Dünyaya Azərbaycan xalqı haqqında, Azərbaycan Ordusu haqqında həqiqətə uyğun olmayan böhtan və uydurma xarakterli məlumatlar yayırdılar. İkinci Qarabağ müharibəsi göstərdi kim kimdir. İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun, Azərbaycan xalqının əyilməz iradəsini göstərdi. Ermənistan ordusu bu gün artıq məğlub edilmiş ordudur. Azərbaycan Ordusu isə müzəffər ordudur!"

Tarix sübut edib ki, siyasətçilərin fəaliyyəti, dövlət başçılarının iradəsi və ümumiyyətlə, milli maraqlar baxımından önəmli olan istənilən məsələ barədə ən doğru, dürüst fikirləri məhz yaradıcı ziyalıların dilindən eşitmək olur. Ötən il avqustun 30-da Şuşada – Vaqif Poeziya Günləri çərçivəsində də həmin qənaətin təsdiqini gördük. Görkəmli ziyalımız, Azərbaycan Yazıçılar Birliyinin sədri Anar həmin tədbirdə auditoriyaya xitabən dedi ki, mən 2010-cu ildə bir mərasimdə çıxış edəndə, – cənab Prezident də iştirak edirdi orada, – dedim ki, mənim 72 yaşım var, amma söz verirəm ki, Sizinlə bir yerdə Şuşaya gedəcəyik və bu, baş verdi. Mən Allaha təşəkkür edirəm, taleyimə minnətdaram və Sizə minnətdaram: "Sizə minnətdaram ki, o sözü desəm də, bir də Şuşanı görəcəyimə inanmırdım, amma bu gün mən burdayamsa, Sizə minnətdaram, bizim müzəffər Ordumuza minnətdaram. Siz bu Qələbəni Ordu ilə bir yerdə qazandınız. Amma diplomatik qələbəni, təbliğat qələbəsini Siz təkbaşına qazandınız. Çünki Sizin 4 dildə onlarla çıxışlarınız yeni Azərbaycanı tanıtdı, Azərbaycan həqiqətlərini çatdırdı. Bu da çox böyük bir hadisə idi. Siz bizə, Azərbaycan xalqına onun milli qürurunu qaytardınız. Bizim hamının qarşısında alnımız açıq, başımız dikdir ki, öz torpaqlarımızı qaytardıq".

Ötən həftə – yanvarın 7-də dövlət başçımızın ünvanına Qubadan gələn bir məktubda isə sadə azərbaycanlıların ürək sözləri öz əksini tapır. Rayon sakini Hilal Əzizov yazır: "Azərbaycana rəhbərlik etdiyiniz illər ərzində ölkəmiz inkişaf və tərəqqi yolu ilə inamla irəliləyib. Vətən müharibəsindən dərhal sonra Sizin verdiyiniz tapşırıqlara əsasən, işğaldan azad edilmiş ərazilərdə sürətli quruculuq işləri görülür, şəhər və rayonlarda müharibə zamanı dəymiş ziyan sürətlə aradan qaldırılır, eyni zamanda, respublikamızın digər bölgələrində abadlıq-quruculuq işləri uğurla davam etdirilir. Bütün bunlar Sizin qətiyyətinizi, möhkəm iradənizi, həmçinin ölkəmizin iqtisadi qüdrətini bir daha əyani şəkildə nümayiş etdirir... Cənab Prezident, ölkəmiz və doğma rayonum Quba üçün gördüyünüz işlərə görə Sizə dərin minnətdarlığımı bildirirəm. Allah Sizin kölgənizi başımız üzərindən əskik eləməsin. Bundan sonra da uzun illər ölkəmizə rəhbərlik edəsiniz. Sizə uzun ömür, möhkəm cansağlığı arzu edirəm. Yolunuz hər zaman uğurlu olsun!".

... Bu gün fəxrlə deyə bilirik ki, liderimiz müzəffər, xalqımız qalib, dövlətimiz isə qüdrətlidir. Dövlət başçımızın fikrincə, biz dövlətimizi daha da qüdrətli etmək üçün bundan sonra ikiqat artıq məsuliyyətlə çalışmalıyıq: "Azad edilmiş bütün torpaqlarda görülmüş işlər Azərbaycanın dövlət büdcəsi hesabına aparılır. Heç bir yardım almamışıq, heç bir kredit almamışıq, bu işləri öz gücümüz hesabına görürük. Əlbəttə, əgər iqtisadi inkişaf sürətlə getməsə, bu işləri bu sürətlə aparmaq mümkün olmayacaq. Görülmüş işlər nəticəsində demək olar ki, biz artıq postböhran dövrünə qədəm qoyduq".

Bəli, müasir Azərbaycan reallıqları bütün dünyanın maraq dairəsindədir. İndi beynəlxalq hərbi ekspertlər deyirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıbdır. Prezident xalqa çağırış edir: "Biz elə planlaşdırmalıyıq ki, bəlkə də əlli ildən sonra XXII əsrin müharibəsinə də hazır olaq. Çünki güc hər şeyi həll edir. Əfsuslar olsun ki, bu, belədir. Beynəlxalq hüquq işləmədiyi yerdə ancaq güc amili həlledici ola bilər".

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***